# BƏDİİ ƏSƏRLƏRDƏ QLOBAL SİYASİ PROSESLƏR

## *Çingiz Abdullayevin «Qanın üç rəngi» romanında Heydər Əliyev obrazı*



*Gülxani PƏNAH*

*(Əvvəli ötən saylarımızda)*

Respublikamızın idarə olunmasında olduğu kimi, Sovet dövründə SSRİ rəhbərliyi tərəfindən irəli çəkilib, ən məsul vəzifələri öz üzərinə götürən və bu vəzifələrin öhdəsindən ləyaqətlə gələn, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini kimi yüksək vəzifə tutan xalqımızın ləyaqətli oğlu «ittifaqın bütün sənayesinə, iqtisadiyyatına, təsərrüfatına, elminə, təhsilinə, mədəniyyətinə, səhiyyəsinə, tikintisinə birbaşa rəhbərlik etməklə, Sov. İKP Siyasi Bürosunun üzvü kimi «dövlətin daxili və xarici siyasətini müəyyənləşdirən əsas simalardan» biri kimi tarixdə qalıb. Bu böyük tarixi yola ilk qədəmlərini ən çətin, ən məsul dövrdə-MTN-nın sıralarında işlədiyi vaxtlardan başlayaraq dövlətinin, xalqının mənafeyini hər şeydən üstün tutan bir vətəndaş, oğul kimi atıb.

Yazıçı burada xalq Uəbhəsi hakimiyyətə gəldiyi illərdə Türkiyə ilə münasibətlərin genişləndirilməsi sahəsində görülən işlərə toxunur. Türkiyə səfirliyinin burada faktiki ikinci baş nazir rolunu oynadığı, ölkədə ticarət əlaqələrinin genişləndiyini, burada ticarətlə məşğul olanların vergilərdən yayınması, bəzi özbaşınalığı, keçid dövründə yaratdığı gərginlikləri qələmə alır. Əsərdə terrorun həyata keçirilməsində dolayı da olsa iştirak edən, milliyyətcə türk olan Ənvər Sovet İttifaqı dağılandan sonra burada alverlə, ticarətlə geniş məşğul olmaq imkanı qazananlardandır. O vaxt ölkəyə gələnlər iş yeri açmaq, iqtisadi sahədə işlər görmək barədə düşünmürdü. Əsasən bu qarmaqarışıq zamanda bir qədər gəlirlərini artırmaq istəyirdilər.

Həmin vaxtlarda Ənvər Buzovnada bir daça alır. Sonralar ölkədə alverçiliklə məşğul olub, çoxlu miqdarda qızıl, gümüş, brilyant qiymətli əşyalar əldə edir. Yığdığı bu qiymətli əşyaları prezidentlərə qarşı sui-qəsd günü götürmək üçün Buzovnaya getməli olan Ənvər o gün işlərini planlaşdırdığı kimi qura bilmədi. Başladığı işi başa vura bilməyən Ənvər Xəlil maşını sürətlə sürdüyündən avtomobil qəzası nəticəsində həlak olur. Türk oğluna yaraşmayan çirkin siyasətə xidmət edən Ənvərin Azərbaycanın ağır günlərində ölkədə qiymətli əşyaları dəyər-dəyməzinə alıb, külli miqlarda var-dövlətə sahib olması, ölkənin rəhbərinə qarşı suiqəsddə iştirak etməsi ikrah doğurur. Prezidentlərə qarşı sui-qəsd planlaşdıran terrorçulara dəstək olmaqla təkcə iki şəxsin deyil, yüzlərlə insanların faciəsinə səbəb olacaq terror aktının baş tutmasına kömək etməsi simasızlığını göstərir. Uinayətkarınsa dediyimiz kimi milləti, dövləti olmaz. Lakin ona mane olan xalqını, vətənini sevən Fərid kimi oğullar da vardı. Ənvərin qəzaya uğramış maşınından tapılan dimlomatdan çıxan sənədlər, əşyalar əsasında anlaya bilir ki, nəsə ağır bir cinayətin üstünün açılmasında Dövlətin təhlükəsizlik əməkdaşlarına kömək edə bilər. Qiymətli bank əşyaları, silah, müxtəlif pasport kağızları, hansısa bir bankın sxemi çox böyük bir təhlükənin törədiləbiləcəyindən xəbər verirdi. Həyat yoldaşı, yanındakı adamlar əhəmiyyət verməDiyi bu əşyalara Fərid ayıq gözlə baxır. Diplomatı onların iradlarına baxmayaraq gecə yarısı olsa da, polisə çatdırmaq üçün tələsir. Sxemi tapılan binanın «Gülüstan» sarayının- ölkənin ən nüfuzlu qonaqlarının qəbul edildiyi, şərəflərinə qonaqlıq verildiyi yer olduğunu düşünəndə sayıqlıqla anlayır ki, ağır bir terror aktı hazırlanmışdır və onun qarşısını almaq lazımdır. Əvvəllər dəri-zöhrəvi dispanserin baş həkimi işləmiş Fərid Maqsudov növbəti hakimiyyətə gələn qüvvələr tərəfindən vəzifəsindən endirilmiş, sıravi həkim kimi yenə də dispanserdə işləyən vətəndaşdır. O, yoldaşını evə qoyub, dostu ilə birlikdə tanışı olan bir zabitlə görüşmək qərarına gəlsə də, vəziyyət başqa şəkil alır. O, tanışını tapmır, eyni zamanda növbəti zabit onu UVD-nin rəisinin yanına buraxmaq istəmir. Başqa çarəsi olmayan Fərid diplomatı açır, onun içindəki qiymətli əşyaları, qeyri qanuni sənədləri, sarayın planını görür və bu gün Gürcüstan prezidentinə orada banket verildiyini yada salır. Fərid ilk öncə alacağı təşəkkür əvəzinə həm həyəcanlı olan, həm də artıq hər kəsdən şübhələnən, şəhərdə hökm sürən həyəcan siqnalı sinirlərini çuğlayan orqan işçilərinin təhqirlərinə məruz qalır. Dostu ilə birlikdə onun terrorçularla əlaqəli olduğundan şübhələnən polis orqan işçilərinin hərəkətlərindən qəzəblənir, onlara kömək etməyə gəldiyini, bununla belə, onların bu anlarda-onu terrorçularla əlaqədə təqsirləndirdikləri anda artıq düşmənlərin ölkəsinin prezidentinə qarşı hansısa bir qəsd hazırladıqlarına inandırmağa səy göstərir. Bu hərəkətlərinə görə cavab verməli olacaqlarını, bunun üçün onları mütləq cəzalandıracaqlarını söyləyir. Dostu onu bu işə baş qoşmaqda təqsirləndirməsinə baxmayaraq, Fərid inanır ki, tezliklə hər şeyi yoxlayacaqlar və haqlı olacaqların sübut edəcəklər. Orqan işçiləri hansı ki, Fərid «diplomatı» onlara təqdim etmişdi, onlar yenə də Fəridi və onun dostunu Ənvər Xəlili öldürməkdə təqsirləndirirdilər. Keçmiş prezidentin qohumu kimi şübhələndikləri Fərid onların sərt, mənasız təhqirlərinə məruz qalır.

Yazıçı hələ də DİN, MTN orqanlarında səriştəsiz orqan işçilərinin olduğunu, onların bəzən vətəndaşlara qarşı kobud rəftar etdiyini bütün reallıqları ilə verir. Hər an baş verəcək təhlükənin tez qarşısını almaq üçün tələsməkdənsə, kimisə, nədəsə günahlandırmaq, şübhələnmək əslində orqan işçiləri arasında kütbeyin, Fəridin dediyi kimi, «duraçka»ların olduğunu göstərir. Fərid açıq ürəklə, saf niyyətlə, xalqına, torpağına, ölkəsinin rəhbərliyinə qarşı törədiləcək cinayətdən narahat olur, təhqirlərə dözür, əsl vətəndaş kimi hərəkət edir, ədalətin qələbə çalacağına inanır.

Yazıçı Gülüstan sarayının direktoru Veysəl Tağıyevin surətini yaradır. Saraydakı bütün işçilərini yaxşı tanıyan, uzun illər bu sistemdə işləyən insandır, işini yaxşı bilən işçilərə də ehtiyacı olduğundan orduda n təxris olunan Kazımı əli təmiz, bacarıqlı, işə can yandıran görüb belə bir işçi tapdığından məmnun olur. Direktorun tam etibarını qazanan Kazım Ənvər Xəlil tərəfindən ona tapşırılmış işi də böyük ustalıqla, kimsənin şübhələnə bilməyəcəyi şəkildə qurur. Veysəl ağlına də gətirə bilmir ki, onun rəhbərlik etdiyi bu böyük sarayda iki böyük dövlətin prezidentlərinə qarşı planlaşdırılmış terror aktında saf, təmiz tanıdığı Kazımın da əli var. Hətta Kazım məharətlə sarayın mühafizəçilərinin başını «tovlaya» bilir. Baxmayaraq ki, mühafizə orqanlarının əməkdaşlarının suallarına cavab verən, Veysəlin «işinə» qarışan Kazıma sərtliklə onun işinə qarışmamağı tələb edir. Kazım siyasətlə cavab vermir, susur. Uiddi direktor Kazımın mətbəxdə yerləşdirdiyi telefonla terrorun işində iştirak edən qrupun üzvləri ilə əlaqə saxladığından da xəbərsizdir.

Yazıçı burada da maraqlı qadın xəfiyyə obrazı yaradır. Keçmiş SSRİ DTK-nın əməkdaşı İnqa Strumlina obrazı. O, hər iki prezidentə qarşı hazırlanmış sui-qəsdin iştirakçılarındandır. Qrupun iştirakçısı Piskunovu aradan götürür. Zala girmək üçün Urbatlını və arvadını qətlə yetirib, Quodislə Urbatlının arvadının sənədləri ilə zala girə bilir. Bütün keçirilən əməliyyatda yaxından iştirak edir. O, səbrli, təmkinli, çətinliyə düşəndə məharətlə işin içindən çıxmağı bacarır. Zalda Dronqonu görür. Gülləsinin boşa çıxmasına, Piskunovu aradan götürərkən onu öldürə bilmədiyinə təəssüflənir. «Başa düşə bilmirəm necə olub ki, mənim gülləm boşa çıxıb. Sadəcə olaraq çox tələsirdik. Gərək nömrəyə girib, hər ikisini aradan götürəydim».

Əsərdə prezidentlərə qarşı terrorun təşkilatçısı Freyzerdir, transmilli şirkətlərin mənafeyini təmsil edir. O, Bolqarıstana gedərək neft kəmərinin çəkilişi ilə bağlı danışıqlar aparır. Bu işə Yunanıstanın gəmi sahibkarları da maraq göstərir. Ona görə ki, bu variant onlar üçün «qızıl yağışına» bərabər idi. Yunanıstan neft kəmərinin Novorossiyskidən keçməsini, nefti Yunanıstanın Avropaya nəqlini Rusiya tərəfi də dəstəkləyir. Gürcüstan və Türkiyənin də öz variantını dəstəkləməsi Rusiyanın xeyrinə deyildi. Ona görə hakimiyyətdə olan bəzi qüvvələr Savelyevin, Dronqonun onların mənafeyinə xidmət etmədiklərini, FTX əməkdaşlarının fəaliyyətindən narazıdırlar. Ölkənin baş naziri bağlanacaq müqavilədən, FTX rəhbərliyi isə öz ölkəsinin mənafelərinə uyğun olaraq qonşu dövlətlərdə sabitliyin qorunub saxlanmasında, prezidentlərə qarşı sui-qəsdin qarşısının alınmasında maraqlı idi. Qruodis zalda da işləri böyük təmkinlə qurur. Partlayıcıların güldanda deyil, çardaqda qurulmuş antena vasitəsi ilə idarə edildiyini son anda başa düşən Dronqonun siqnal antenaya çatmağa üç dəqiqə qalmış artıq zərərsizləşdirdiyindən xəbərsiz olsa da, maşın tutub özünü təyyarəyə yetirə bilir.

Burada da hər an MTN-nin əməliyyat planı olacağından ehtiyatlanan Qruodis onları aldadır. Kolluqda gizlənərək yaralı sürücüsünün gətirildiyi maşının sürücüsünü aradan götürür. Əməliyyat qrupu təyyarənin yanına təcili yardım maşının yaxınlaşmasını və oradan verilən siqnalla təyyarəyə hücuma başlayacağını düşünsə də, Qruodis onları aldadıb iki əməkdaşını öldürüb, maşını mühasirəni yarıb düz təyyərənin pilləkəni yanına gətirib yaralını və həkim qadını da təyyarəyə minməyə məcbur edir: «Təyyarədə hamı şadyanlıq edirdi. Pullar yerində idi. Bütün dəstə, o cümlədən Korsunov (onlar sarğı içində olan Dronqodan xəbərsiz idilər) təyyarədə idi. Xərəyi biznes-klass salonuna qoymuşdular». Qruodis ehtiyatlıdır. O, Şteynbax və Leonidova inanmırdı. İş baş tutmasa pulların qaytarıla biləcəyindən ehtiyatlanaraq əvvəlcədən pulları İsveçrə bankından bir qədər aşağı məbləğlə Fransada başqa hesaba köçürmüşdü. Təyyarə İraq-İran sərhədini keçən kimi onlar paraşütlə İordaniya sərhədinə çıxacaqlarını, orada Əhmədin maşınının onları gözlədiyini bilirdi.

Dronqonun əməliyyatı çox mürəkkəb şəraitdə apardığını görürük. Özünü Qruodisin yaralı şoferi kimi təqdim edilməsi üçün iki nəfər həkim çağırtdırıb başını və əllərini -ümumiyyətlə, bədəninin bütün yuxarı hissəsini tənziflə sarıtdırıb təyyarəyə daxil ola bilmişdi.

Dronqo burada da öz keçmiş həmkarlarına qalib gələ bilir. Baxmayaraq ki, onunla gəlmiş Rusiya Kəşfiyyat idarəsinin podpolkovniki Leonidov Qruodisin dəstəsindən olan köhnə həmkarlarını sığortalamaq üçün onun işinə ziyan vurub özünü xarici curnalist kimi qələmə verən Şteynbaxla əlaqə yaradaraq az qala məhv etmişdi, Savelyev onun həyatını xilas edir. Savelyev zalda olarkən Leonidovun zaldan çıxdığının, əvvəllər tanımadığı curnalistlə söhbətinin şahidi olur və ondan şübhələnərək izinə düşdüyündən vəziyyət dəyişir.

Dronqo Qruodis üzərində qazandığı qələbədən məmnun deyil. Qruodis onun həmkarı, vahid ölkənin vətəndaşı olub. Onların öz ideyaları olub. Amma sovetlər dağıldı, əslən Pribaltikalı kəşfiyyatçı həm vətənini, torpağını, həm də mənsub olduğu ölkəni, əzizlərini itirdi, Qruodis bədbəxt oldu. O, milyonlar qazanmaq istəyindən çox bəlkə də dünyadan öz ajığını çıxmaq istəyən insana bənzəyir. Dronqo onun fajiəsini yaxşı başa düşür. O da onun kimi demək olar ki, bədbəxtiydi. O da, otuz üç ildə qazandığı müvəffəqiyyətləri, dostlarını, ölkəsini itirməyə dözməyənlərdən idi. Anjaq Dronqonun ondan bir üstün jəhəti var idi ki, vətənində onu sevirdilər. Qruodisi isə vətənə buraxmırdılar. Onlara keçmiş çekist lazım deyildi. Böyük dövlətin DTK-nin işçisi olmuş Qruodis artıq Moskvada da etibarlı deyildi. Onun üçün dəhşət idi ki, nəyi vardı-vətəni, ölkəsi, işi, ailəsi əlindən alındı, onun üçün «heç nə saxlamadılar». Bu dağılan böyük ölkənin vətəndaşlarının fajiəsi idi. Ölkədə Sovet recimi 90-jı illərdə sarsıldı, 88-ji ilin 11 noyabrında Riqa qəsrinin müqəddəs Ruh qülləsində latış bayrağı qaldırıldı. 99-ju il 23 avqustda minlərlə insan Baltik dövlətlərinin azadlığı uğrunda qalxdılar. 90-jı il 4 mayda öz müstəqilliyini elan edən Latviyada «son əlli ilin tarixi təzədən yazılmağa başlandı: «Bütün hər şey təhrif olunmuş şəkildə nümayiş etdirildi.

Əhalinin yarısı elementar hüquqlardan məhrum edildilər. Onlara vətəndaşlıq hüququ verilməkdən boyun qaçırıldı. Hüquqmühafizə xidmətlərinin çoxlu veteranları öz misilsiz xidmətlərinə görə işdən qovuldular, jinayət məsuliyyətinə jəlb edildilər. Qruodis də onlardan biri idi.

Yazıçı siyasət arenasında istər müsbət, istərsə də mənfi nöqteyi nəzərindən olsun, insanların surətlərini ədəbiyyata gətirərkən heç də onların bir və ya iki əsərdə şəxsi surətini yaratmır. O, öz fəaliyyəti ilə tarixə düşmüş siyasətçinin, ölkələrin daxili və xariji siyasətini, bunun xalqlara nə verdiyini və nəyi aldığını yeri gəldikjə bu və ya digər romanın sücetinə daxil edir ki, bu da hadisələrdən doğaraq öz əksini tapır. Bəzən Çingiz Abdullayevin əsərlərinin bir-iki mərhələ çərçivəsində təhlilinin mümkünlüyünü deyənlər bir qədər yanılmış olurlar. Çünki Ç.Abdullayev hansısa bir jinayətin, bir terror aktının, bir ölüm faktının, narkomafiyanın mövzusunu sücet seçməklə kifayətlənmir. Onun hər bir əsərini müxtəlif prizmalardan təhlil etmək olar. Onların hər biri bir tədqiqat işinin mövzusudur. İnjəliklərə getmədən Ç.Abdullayevin yaradıjılığı əsasında onlarla namizədlik dissertasiyası yazmaq mümkündür. Fərasətli tədqiqatçı əsərlərini oxuyarkən bunu görür və görməlidir də. Ç.Abdullayev dediyimiz kimi Frederik Forsayt, Eduard Topol, Jeyms Xedli, Yan Flemminqin, Erl Stenli Qardner, Pyer Bualo Narsecakin, Karter Braun, Yorc Simenon, Qilbert Çesterton, Milorad Paviç, Aleksandra Marinina, Marina Daşkova....onların əsərlərindən o qədər fərqlənən əsərlər müəllifidir ki, bu da onun siyasi, kriminal hadisələri özündə əks etdirən əsərlərdə qoyduğu problemlərdən irəli gəlir. O da öz sələfləri kimi yaşadığı jəmiyyətin eybəjərliklərini verir, o da pul, var hökmranlıq edən dünyada insan fajiəsinə biganə qalmır, baş alıb gedən çirkin siyasətlərin izinə düşüb onda oxuju üçün qəzəb yaradır, nifrət oyadır.

*(Davamı var)*